**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# GÜRCÜSTAN ƏRAZİSİNDƏKI TÜRK MƏNŞƏLİ ETNOTOPONİMLƏRİN LİNQVİSTİK XÜSUSIYYƏTLƏRI

**İxtisas: 5710.01 – Türk dilləri**

Elm sahəsi: filologiya – dilçilik

İddiaçı: **Hüsniyyə Mədət qızı Çobanova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2021**

Dissertasiya işi AMEA Nəsimi adına Dilçilik İnstitutunun Türk dilləri və Müasir Azərbaycan dili şöbələrində yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**İsmayıl Babaş oğlu Kazımov**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Tünzalə Lətif qızı Baxşıyeva**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Elşən Əlisa oğlu Şükürlü**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Elçin Məhəmməd oğlu Məmmədov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.06 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: akademik
**Möhsün Zellabdin oğlu Nağısoylu**

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
**Sevinc Yusif qızı Məmmədova**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, dosent
**Zemfira Musa qızı Əliyeva**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Qonşu və digər xalqlarla siyasi-iqtisadi əlaqələrin, inteqrasiyaların, innovasiyaların inkişafının hazırkı mərhələsi elm sahələrinin, xüsusən də dilçiliyin qarşısında olduqca aktual problemlərin həllini, zəruriliyini tələb edir. Belə aktual problemlərdən biri də türk mədəni sisteminin tarixi-estetik mahiyyətinin müəyyən cəhətlərini özündə əks etdirən, qədim azərbaycanlıların məskunlaşdıqları əraziləri, onların gəlmə və getmə coğrafiyalarının müəyyənləşdirilməsində mühüm rol oynayan etnotoponimlərin tarixi-coğrafi konteksti daxilində linqvistik-tipoloji xüsusiyyətlərinin tədqiq edilməsidir. Bu baxımdan zəngin və rəngarəng bir sistemə əsaslanan və Azərbaycan onomastikasının yad arealda müəyyən bir layını təşkil edən Gürcüstan ərazisindəki etnotoponimlərin toplanması, onların yaranmasında rol oynayan ekstralinqvistik faktorların üzə çıxarılması, struktur-semantik xüsusiyyətlərinin, leksik-semantik, etimoloji və ərazi cəhətdən təhlili minilliklər ərzində həmin torpaqlarda yaşayanların etnik və dil mənsubiyyətinin aşkara çıxarılmasına imkan verə bilər. Qədim gürcü, rus, Azərbaycan və digər mənbələrdə qeydə alınmış 500-dən çox etnonim qruplar, demək olar ki, Gürcüstanın aborigen türklər yaşayan kənd, dağ, çöl, düz, dərə, yataq, təpə, qaya, çay, bulaq, göl və s. adlarında daşlaşmışdır.

Müşahidələr göstərir ki, Gürcüstan ərazisində mövcud olan etnotoponimik layın tərkib və strukturu olduqca müxtəlifdir. Etnooykonim, etnooronim və etnohidronimlərin tərkib və quruluşunda özünü göstərən tarixi dil elementlərini təhlil etmək, semasioloji-etimoloji araşdırma nəticəsində etnooykonimlərin nüvəsində baş vermiş dəyişiklikləri meydana çıxarmaq, xalq, qəbilə, tayfa, nəsil, tirə miqrasiyalarının vəziyyətini müəyyənləşdirmək baxımından bu araşdırma mühüm əhəmiyyət kəsb edir.

III əsrdə buntürklərin, IV əsrdə hunların, V əsrdə onoqurların, VII-VIII əsrlərdə xəzərlərin, VI-VIII əsrlər qıpçaqların, XI əsrdə yeni qıpçaqların, XI əsrdə oğuz-səlcuqların və digər türkdilli müxtəlif tayfa və tayfa birləşmələrinin indiki Gürcüstan ərazisinə bir-birinin ardınca gələrək məskunlaşmasını nəzərə alsaq, bu da

regiondakı etnotoponimik mənzərənin kompleks tədqiqini olduqca zəruriləşdirir və bütün bunlar qədim Azərbaycan xalqının tarixi keçmişi, sosial durumu, mədəni tarixi şəraiti, təsərrüfat həyatı və bütövlükdə bu ərazidəki nəsillərin etnik mənsubiyyəti haqqında geniş informasiyavericilik mənbəyinə çevrilir. Bu mühüm məsələlər də həmin mövzunun aktuallığını şərtləndirir.

Gürcüstan ərazisindəki etnotoponimlərin tarix, coğrafiya və dilçilik elmlərinin inteqrasiyası fonunda sistemli şəkildə ekstralinqvistik faktorlar, areal xüsusiyyətlər nəzərə alınmaqla tarixi-linqvistik, leksik-semantik, qrammatik-struktur modellərin tədqiqi, araşdırılması Azərbaycan dilinin, eyni zamanda, türkologiyanın bəzi qaranlıq məsələlərinin aydınlığı üçün olduqca mühüm əhəmiyyət daşıdığı kimi, çoxlu sayda etnotoponimlərin gürcüləşdirilməsi siyasətinə də tərəfimizdən münasibət bildirilməsi olduqca aktuallıq kəsb edən məsələlərdəndir.

**Tədqiqatın obyekti və predmeti.** Qədim və müasir mənbələrdə, sənədlərdə, inzibati ərazi vahidi kitablarında əksini tapan Gürcüstan ərazisində türk mənşəli etnotoponimlər, etnooykonimlər, etnooronimlər, etnohidronimlər tədqiqatın obyekti – onların yaranma yolları, leksik-semantik, morfoloji və sintaktik xüsusiyyətləri tədqiqatın əsas predmetidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Gürcüstan ərazisindəki etnonimlər əsasında əmələ gəlmiş etnooykonimlər, etnooronimlər və etnohidronimlər çox zəngin leksik-semantik, morfoloji və sintaktik xüsusiyyətlərə malikdir. Həmin etnotoponimlərin formalaşmasındakı ekstralinqvistik faktorların, linqvistik amillərin tədqiqi, eyni zamanda, onların yaranma və formalaşma yollarını, mənşəyini, türkdilli xalqlar yaşayan ərazilərdəki paralellərin, həmçinin məkrli gürcüləşdirilmə siyasətinin öyrənilməsi olduqca əhəmiyyətlidir. Məhz bu cəhətlər nəzərə alınaraq tədqiqatın qarşısında aşağıdakı məqsəd və vəzifələr qoyulmuşdur:

- Gürcüstan ərazisinin fiziki-coğrafi xüsusiyyətlərini əks etdirən türk mənşəli etnotoponimlərin ümumi səciyyəsini vermək və onların formalaşmasındakı ekstralinqvistik faktorları üzə çıxarmaq;
- Ən qədim mənbələrdə, qaynaq və məxəzlərdə, rəsmi və qeyri-rəsmi sənədlərdə, inzibati ərazi bölgüsü kitablarında əksini tapan

etnotoponimləri dəqiqləşdirmək;

- Ərazidə mövcud olan türkmənşəli etnotoponimlərin yaranma yollarını və üsullarını müəyyənləşdirmək, coğrafi terminlərin etnotoponim yaradıcılığındakı rolunu göstərmək;

- Regionun etnotoponimlərinin mənşəyini müəyyənləşdirmək, etnooykonimlərin, etnooronimlərin, etnohidronimlərin leksik-semantik tərkibini təyin etmək;

- Regiondakı türk mənşəli etnotoponimlərin Şərqi Gürcüstanın cənub-qərb hissəsindəki Dmanisi (Başkeçid), Bolnisi (Bolus), Marneuli (Borçalı), Qardabani (Qarayazı) rayonları ərazisindəki paralellərin, o cümlədən türkdilli xalqlar yaşayan ərazilərdəki areallarını müəyyənləşdirmək;

- Ərazinin türkmənşəli etnotoponimlərinin gürcüləşdirilməsi məqsədilə səbəblərini şərh etmək.

**Tədqiqatın metodu.** Gürcüstan ərazisində mövcud olan türk mənşəli etnotoponimlərin araşdırılması prosesində linqvistik tədqiqatların başlıca metodlarından, təsviri metoddan, həmçinin araşdırmanın xarakteri ilə bağlı tipoloji metodlardan, digər elmi-tədqiqat üsullarından – sistemləşdirmə, qarşılaşdırma və statistik üsullardan istifadə olunmuşdur.

**Dissertasiyanın elmi yeniliyi.** Gürcüstan ərazisindəki etnooykonimlər, etnooronimlər, etnohidronimlər ilk dəfə olaraq monoqrafik şəkildə tarixi-linqvistik aspektdən tədqiq olunmuşdur. Həmin etnotoponimlərin formalaşmasında müxtəlif türk tayfa adlarının rolu, ekstralinqvistik faktorların müəyyənləşdirilməsi, areal xüsusiyyətlərinin üzə çıxarılması, gürcüləşdirmə siyasətinin səbəblərinin aydınlaşdırılması, etnotoponimlərin leksik-semantik, morfoloji, sintaktik xüsusiyyətlərinin dəqiqləşdirilməsi, həmçinin bəzi etnotoponimlərin etimologiyasının ilk dəfə olaraq araşdırılması dissertasiyanın elmi yeniliklərindən hesab edilməlidir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** 1. Qədim türk etnoslarının aborigenliyinin elmi dəlillər əsasında sübuta yetirilməsi.

2. Gürcüstanın azərbaycanlılar yaşayan bölgələrində mövcud olan etnotoponimlərin əksəriyyətinin dil baxımdan türk mənşəli olması və qədim türk tayfalarının adlarını əks etdirməsi.

3. Etnotoponimlərin komponentlərinin türk tayfalarının adları,

relyef bildirən sözlər, metaforikləşmiş vahidlər əsasında formalaşması.

4. Ərazinin türk mənşəli etnotoponimlərinin mənaca etnooykonim, etnooronim, etnohidronim kimi qruplaşdırılması.

5. Gürcüstanın türkmənşəli etnotoponimlərinin mənbələrdə əksinin göstərilməsi və gürcüləşdirmə siyasətinin müəyyənləşdirilməsi.

6. Ərazinin türkmənşəli etnotoponimlərinin qrammatik baxımdan leksik-semantik, morfoloji və sintaktik üsullarla formalaşması.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Mövcud tədqiqatdan müxtəlif ərazilər üzrə etnotoponimlərin, eyni zamanda, digər onomastik vahidlərin tarixi-linqvistik, etimoloji və tipoloji xüsusiyyətlərinin araşdırılmasında mənbə kimi istifadə etmək olar. Həmçinin digər türk dillərinin materialları əsasında eyni xarakterli araşdırmalarda, etnonimik lüğətlərin tərtibində bu tədqiqat xüsusi əhəmiyyət kəsb edə bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın müvafiq bölmələrinə aid müxtəlif xarakterli məqalələr ölkədə və xarici konfrans materiallarında, elmi jurnallarda dərc edilmişdir. İlk dəfə olaraq bizim müəllifliyimiz ilə "Gürcüstanın türk mənşəli etnotoponimlər lüğəti" adlı kitab hazırlanıb.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun Müasir Azərbaycan dili və Türk dilləri şöbələrində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Giriş 4 səhifə, I fəsil 49 səhifə, II fəsil 38 səhifə, III fəsil 47 səhifə, Nəticə 2 səhifə, istifadə olunmuş ədəbiyyat siyahısı 15 səhifə, əlavələr 15 səhifə Dissertasiya işi ümumilikdə 173 səhifə, 269, 144 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi əsaslandırılır, tədqiqatın obyekt və predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan müddəalar müəyyənləşdirilir, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki

əhəmiyyəti, tədqiqat işinin aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi haqqında məlumat təqdim edilir.

Dissertasiyanın I fəsli – **"Gürcüstan ərazisində etnonim əsaslı toponimlər"** adlanır və üç yarımfəsli əhatə edir.

"Etnonim" yunan sözü olub, "tayfa, nəsil, tirə, soy, etnik qrup, xalq və ya millət adı" mənasındadır. Etnonimlərin əsas funksiyalarından biri də toponim yaradıcılığında fəal iştirak etməsidir.

Qəbilə adlarından törənən yer-yurd adları digər qrupdan olan toponimlərlə müqayisədə daha qədimdir. Q.Məşədiyev də düzgün olaraq yazır ki, *tayfa və nəsil adları vasitəsilə formalaşan kənd adlarını tarixi baxımından daha qədim hesab etmək lazım gəlir*[1].

Tarixən hər hansı bir etnos hansı əraziyə qədəm qoyub məskunlaşmışsa, heç şübhəsiz ki, həmin əraziyə öz adını vermiş və beləliklə də, həmin bölgənin toponimiyasında öz dərin izlərini buraxmışdır. Bu baxımdan qonşu Gürcüstan ərazisində elə bir bölgə yoxdur ki, *orada türk tayfalarının adları əsasında formalaşan etnotoponimlərə rast gəlinməsin. Ayrı-ayrı mənbələrdə də qədim türk tayfalarının hələ eramızın ilk illərindən başlayaraq Gürcüstana güclü axını, ən əlverişli inzibati, strateji, əhəmiyyətli yerləri tutduqları, qüdrətli mövqeləri ilə məşhur olduqları göstərilir*[2].

Gürcüstan ərazisindəki etnotoponimləri mənşə baxımından üç böyük qrupa bölmək olar:

1. Gürcümənşəli etnotoponimlər;
2. Türkmənşəli etnotoponimlər;
3. Digər mənşəli etnotoponimlər.

Bizim tədqiqat obyekti, əsasən, türkmənşəli etnotoponimlərdir.

Uzun tarixi inkişaf prosesi keçmiş Gürcüstan ərazisindəki türkmənşəli toponimlərin, demək olar ki, əksəriyyəti qədim türk

---

[1]Məşədiyev, Q. Zaqafqaziyanın Azərbaycan toponimləri / Q. Məşədiyev. – Bakı: Elm, – 1990. – s.98

[2](Меликишвили, Г.А. К истории древней Грузии / Г.А.Меликишвили. Тбилиси: Изд-во Акад. Наук Груз. ССР, –1959. – с.105; Şengeleya, N.N. Səlcuqlar və Gürcüstan XI əsrdə / N.N.Şengelaya. – Tbilisi: – 1986. – s.76

etnosların adlarını özlərində əbədiləşdirmişdir.

Birinci fəslin birinci yarımbölməsi **“Etnoslar və yer adları. Etnonimlərin toponim yaradıcılığında rolu”** adlanır. Gürcüstan ərazisində müxtəlif türk etnosları ən qədim dövrlərdən yaranmış və bu torpaq gürcülərlə bərabər, müxtəlif türk tayfalarının da məskəni olmuşdur.

Gürcüstandakı türk mənşəli etnotoponimlərin köklərini, qədimliyini meydana çıxarmaq üçün birinci növbədə bu ölkədə türk etnoslarının tarixin hansı dövrlərində məskunlaşdıqlarını, etnosların toponimlərə transferini və onların toponim yaradıcılığındakı rolunu müəyyənləşdirmək lazımdır.

*“Müxtəlif tayfa və xalq adlarını əks etdirən etnonimlər tarix elmi baxımından xüsusi əhəmiyyət kəsb edir. Etnotoponim tayfa və xalq adlarından yarandığından bu və digər tarixi mərhələdə mövcud olmuş etnik tərkib həmin etnotoponimlərdə yaşayır”*[3]. Türk etnoslarının Gürcüstan ərazisində məskunlaşma tarixi olduqca qədimlərə gedib çıxır. X.Əliyev də haqlı olaraq yazır ki, *Gürcüstan ərazisində Azərbaycan mənşəli toponimlərin yaranma tarixi həmin ərazilərdə yaşayan azərbaycanlıların tarixi qədər qədimdir. Xalq ta qədimdən başlayaraq coğrafi obyektlərə uyğun adlar vermişdir. Həmin adlar təsadüf nəticəsində deyil, xalqın şüurlu fəaliyyətinin, ictimai, iqtisadi və siyasi münasibətlərini bildirməyə xidmət etmişdir. İnsan cəmiyyətini coğrafi adsız təsəvvür etmək mümkün olmadığı kimi, həmin adları da xalqsız təsəvvür etmək olmaz.*

*Toponimlərin xalqın tarixində, dilində, mənşəyində böyük əhəmiyyəti tədqiqatçıların daim diqqət mərkəzində olmuşdur. Qədim dövr tarixçiləri toponim və etnonimlərə mötəbər sənədlər kimi müraciət etmişlər. Gürcüstan ərazisində ta qədim dövrlərdən məskunlaşan türk etnoslarının gəlmə və getmə coğrafiyasının, miqrasiyasının tarixinə ekskurs etmədən bu ərazidə mövcud olan etnotoponimlərin hansı tayfa, nəsil, tirə, qəbilə adından törəndiyini aşkara çıxarmaq olduqca çətin olardı*[4].

---

[3] Budaqov, B. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti / B.Budaqov, Q.Qeybullayev. – Bakı: Nafta Press, – 1998. – s.11

[4] Əliyev, X. Gürcüstanın türk mənşəli toponimləri (el-oba, yer-yurd adları) / X.Əliyev. – Gəncə:– 1999. – s.11

Gürcüstan ərazisindəki etnonimik səciyyəli toponimlərin hər biri ayrı-ayrılıqda xalqımızın tarixi, etnogenezi haqqında çox qiymətli və dəyərli məlumatlar verir. Gürcüstan ərazisində zəmanəmizə qədər gəlib çıxan bəzi etnotoponimlərin 3000 ildən artıq bir tarixi var. Əksər toponimistlərimiz isə bu ərazidəki türk mənşəli yer-yurd adlarına 900 ildən artıq yaş vermirlər. Halbuki bu ərazidə elə etnotoponimlərə rast gəlirik ki, bunlar nəinki Azərbaycan xalqının, o cümlədən türk xalqlarının tarixində silinməz izlər qoymuşdur. Məsələn, Oğuz etnos adı da Gürcüstan ərazisindəki bəzi toponimlərin yaranmasında iştirak edən qədim onomastik vahidlərdən biridir. Dmanisi rayonunda mövcud olan Oruzman toponiminin birinci komponentində işlənən oruz sözü, heç şübhəsiz ki, oğuz etnoniminin ekvivalentidir. 1728-ci ildə osmanlı türkləri tərəfindən tərtib edilmiş "Dəftəri-müfəssəli-əyaləti-Tiflis"də də Uruz qışlağı oroniminin adı çəkilir. Fikrimizcə, türk xalqları yaşayan ərazilərdə, həmçinin Gürcüstanda bir neçə toponimdə təkrarlanan oğuz komponentli yer-yurd adları qədim türk tayfaları olan az, uz, quz leksik vahidlərindən intişar tapmışdır. Əksər toponimik araşdırmalarda da qeyd edilir ki, quz – qədim quzların (oğuzların) adıdır. Xəz – Quz – Qaz – Kas eyni sözün fonetik silsiləsidir. Bu toponim hissəciklərinin əsasında qədim türk etnonimi olan oğuz sözü dayanır.

Q.Kazımov yazır ki*, səlcuqlar dövründə oğuzların Gürcüstan ərazisinə kütləvi axını və onların oturaq həyata keçməyə başlaması bütün Gürcüstanın türkləşməsi qorxusunu yaradır*[5].

As//az komponentli etnotoponimlərə nəzər salsaq, fikrimizi dolğun bir şəkildə əsaslandıra bilərik. Gürcüstanın Zalqa rayonunda Aşqala adlı kənd var. Mürəkkəb struktura malik bu toponimin birinci komponentində işlənən aş sözü, heç şübhəsiz ki, as//az tayfa adının fonetik variantıdır. Gürcü mənbələrində də xatırlanan Azuki, Aziqurikimi toponimlər də bu qəbildəndir. Deməli, Aşqala etnotoponiminin kökündə as//az//aş tayfasının adını əks etdirən söz dayanır və etnooykonim "asların qalası" mənasını bildirir.

---

[5] Kazımov, Q. Müasir Axısqa türklərinin dilinin tədqiqi. Ön söz // İ. Kazımov. Axısqa türkləri: dil, tarix və folklor / Q.Kazımov. – Bakı: Elm və Təhsil, – 2012. – s.11-12

Etnonimlərin toponimyaratmadakı rolunu izlədikcə məlim olur ki, Gürcüstan ərazisində əksər coğrafi adların yaranmasında hun, as, sir, barsil, onoqur, udi, abdal, sabir,tubal, abar, çul, bozal, tele, qanqlı və s. kimi qədim türk tayfalarının adları çox fəal bir şəkildə iştirak etmişdir.

Birinci fəslin ikinci yarımbölməsində **"Etnotoponimlərin formalaşmasinda ekstralinqvistik faktorlarin rolu"** araşdırılır. Gürcüstan ərazisində etnotoponimlərin "araşdırılmasında, eləcə də onun konkret bir probleminin həllində kompleks üsuldan, daha doğrusu, "*linqvistik faktorlarla yanaşı, ekstralinqvistik amillərin rolunun nəzərə alınması üsulunun vacibliyi*"[6] də əsas şərtlərdəndir. "*Ekstralinqvistik (dildənkənar) faktorlar dedikdə, etnonimika sahəsində tarixçilərin və coğrafiyaşünasların əldə etdikləri tədqiqat əsərləri yada düşür...*"[7]. Ekstralinqvistik faktorlardan istifadə etməklə müəyyən bir etnotoponimin hansı dövrün və ya hansı bir formasiyanın məhsulu olduğunu, konkret bir ərazidə yaşayan xalqın tarixi, ictimai-iqtisadi, sosioloji amilləri ilə bağlı hadisələri əks etdirdiyini meydana çıxarmaq mümkündür. Məsələn, Gürcüstanın Marneuli və Zalqa rayonlarında kənd adlarında mühafizə olunan Quşçu etnotoponiminin formalaşmasında hansı ekstralinqvistik faktorun rol oynadığını meydana çıxarmaq üçün, heç şübhəsiz ki, bu etnoslarla bağlı tarix elminin əldə etdiyi nailiyyətlərə əsaslanmalıyıq. Tarixi mənbələr də əsaslı faktlarla sübut edir ki, vaxtilə dünya səhnəsində Quşan-Kuşan adlı dövlət olmuşdur. "Azərbaycan tarixi"nin I cildində də göstərilir ki, *quşçular Azərbaycana 227-ci ildə gəlmişlər*[8].

Əgər tarixən mövcud olan etnotoponimlər bu günümüzə qədər gəlib çıxmasaydılar, heç şübhəsiz ki, xalqımızın etnogenetik problemlərinin həlli və tədqiqi də müşkül bir işə çevrilərdi. Buna görə də etnotoponimlər araşdırılarkən, ilk növbədə, ekstralinqvistik faktorlara da daha çox üz tutulur.

---

[6]Əhmədov,T. Azərbaycan toponimikasının əsasları / T.Əhmədov. –Bakı: Bakı Universiteti Nəşriyyatı, – 1991. – s.16

[7] Yenə orada. – s.11

[8]История Азербайджана/ под ред. И.А.Гусейнова и др. – Баку: АН АзССР – т. 1. – 1958.– с. 196

Əksər türkdilli xalqlar yaşayan ərazilərdə olduğu kimi, Gürcüstandakı türkmənşəli etnotoponimlərin tədqiq edilməsi məsələsi o qədər mürəkkəb, o qədər çoxcəhətlidir ki, bu məsələnin həllində təkcə dilçilik elminin əldə etdiyi nəticələrə istinad etməklə ötüşmək mümkün deyil və hətta bəzi hallarda belə istinadetmələr yanlış nəticələrin meydana çıxmasına səbəb ola bilər. *"Lakin burası da aydındır ki, ayrı-ayrı tayfalar və tayfa birləşmələri xalqların yaranmasında çox böyük rol oynamışdır. Həm də xalq heç də tayfaların sadəcə yekcins birləşməsi deyil, müxtəlif etnik tərkibli tayfaların tarix boyu qaynayıb qarışmasından ibarətdir. Qonşu xalqlar və xüsusilə tarix boyu mövcud olmuş müxtəlif türkdilli tayfa birləşmələri ilə hərtərəfli etnogenetik və tarixi-mədəni əlaqələrini nəzərə almadan azərbaycanlıların və xüsusilə Azərbaycan dilinin mənşəyi məsələsini həll etmək olmaz"*[9].

**"Gürcüstan ərazisində türk mənşəli etnotoponimlərin areallari, mənbələrdə əksi və gürcüləşdirilməsi siyasəti"** adlanan birinci fəslin üçüncü yarımbölməsində Gürcüstan ərazisindəki türk mənşəli etnotoponimlərin istər öz ərazisi daxilində, istərsə də geniş bir arealın fonunda izlənilməsi, tədqiq edilməsi etnotoponimik sistemin ümumi mənzərəsi haqqında aydın təsəvvür yaratmağa imkan verir. İki və ya daha artıq coğrafi obyektin adını bildirən toponimlər dilçilikdə areal toponimlər hesab edilir. Gürcüstan ərazisinə aid topladığımız çoxlu sayda türkmənşəli etnotoponimlər həm Azərbaycan, həm Ermənistan, həm də İran, Türkiyə, Dağıstan, Orta Asiya respublikalarının etnonimik adları ilə paralellik təşkil edir ki, onların hərtərəfli araşdırılması olduqca mühüm əhəmiyyət kəsb edir.

**ABDALLI** – Gürcüstanın Bolnisi rayonu ərazisindəki bu etnotoponimə Azərbaycanın Ağdam (Abdal), Tovuz (Abdal (2), Qubadlı (Abdalanlı), Oğuz (Abdallı), Ordubad (Naxçıvan MR) (Abdal) rayonlarında təsadüf olunur. Qəbələ rayonunda Mis Abdallı, Qubadlı rayonunda Abdalanlı, Şimal-Qərbi Azərbaycanda (indi Ermənistanda), xüsusilə sabiq İrəvan xanlığının Qəripbasar və

[9]Məşədiyev Q. Zaqafqaziyanın Azərbaycan toponimləri / Q. Məşədiyev. – Bakı: Elm, – 1990. – səh.12

Qırxbulaq mahalında Avdallar adlı kəndlər vardır. Abdallı (Avdallı) – Qədim Borçalının Bağ bölgəsinin Bolulus (indi Bolnisi) rayonunda qədim türk kəndinin adı olub. Maşaver çayının sol sahilində, rayon mərkəzindən 11 km günbatarda, Tiflis-Bolnis-İrəvan avtomobil yolunun kənarında, dəniz səviyyəsindən 620 m yüksəklikdə yerləşir.

Sön illərdə, çox təəssüflər olsun ki, Abdallının adı dəyişdirilib, gürcü dilində "Cavaxi" qoyulub. Kəndin yaxınlığında qaya üstündəki qədim qalanı Koroğlu qalası adlandırırlar. Gürcüstanın Bolnisi rayonunda abdallarla bağlı bir çox oronimlər də qeydə alınmışdır: Abdalların çalası, Abdallının yeri, Abdallı güneyi, Abdallının kolu.

Qədim türk tayfalarından biri olan Abdal adlı etnotoponimlər Türkiyə ərazisində də geniş yayılmışdır. Başqırdlarda, qaraqalpaqlarda, qazaxlarda və türkmənlərdə Abdal adlı tayfa vardır. 1590 və 1728-ci illərə aid mənbələrdə Ermənistan ərazisində abdal etnonimindən törəmiş 5 etnotoponim qeydə alınmışdır. "*XIX əsrdə Şimali Qafqazda Ter əyalətində Abdal dağı adlı etnotoponim də mövcud olmuşdur. Bu tayfa adı V-VI əsrlərdə Orta Asiya, Əfqanıstan və Çin Türküstanında da geniş yayılmışdır*"[10].

VI əsr Suriya mənbələrində Şimali Qafqazın Hun əyalətində yaşayan avqar, bulqar, avar və s. türk tayfaları ilə yanaşı, abdal/abdel tayfasının da adı çəkilir. V.V.Bartold, R.Q.Quzeyev, B.Q.Qafurov abdel/abdal tayfasını Hun tayfası hesab edir. Bu tayfanın adı eftal, heftal fonetik formasında da qeyd edilir. Müxtəlif mənbələr əsasında abdal etnoniminin təhlilə cəlb edən İ.Bayramov yazır ki, *bu etnonim Suriya, Yunan mənbələrində abdel, antalian, erməni mənbələrində xertal, idnal, ərəb mənbələrində xaytal, yaftal, fars, tacik mənbələrində xetal, xaytal formalarında yazıya alınmışdır."Azərbaycan-türk dili üçün səciyyəvi olan "Abdal" etnonimi Orta Asiya türklərinin toponimikasında "Abdal" variantında sabitləşmişdir"*[11]*."Həmçinin bu etnonim Türkmən toponimikasında və Başqır toponimikasında*

---

[10]Алиев, Ф. Очерки по лексике турок Казахыстана / Ф.Алиев. – Алма-Ата: Наука, – 1978. – с.18

[11]Bayramov, İ. Qərbi Azərbaycanın Türk mənşəli toponimləri / İ.Bayramov. – Bakı: Elm, 2002. – s.147.

*"Abdal" variantlarında qeydə alınmışdır"*[12]*. Özbəkistanda da "Abdal" etnonimi geniş şəkildə yayılmış və onlarla etnooykonimin yaranması üçün əsas olmuşdur*[13]*. "Həmçinin, X-XII əsrlərdə Başkir etnoniminə dördüncü qohum-nəsl layında "Abdal" variantında "Abdal" etnoniminin adı da qeyd olunmuşdur"*[14]*"Həmçinin Türkmənistanın Xosambar rayonunda da "avdal" etnonimi ilə düzələn oba vardır"*[15].Mədət və Müşfiq Çobanovlar qeyd edirlər ki, *abdal sözünün mənası "ovu qoruyan, ova arxa olan", türkdilli xalqların mifologiyasında deyildiyi kimi "ov tanrısı" deməkdir*[16]*.*

**DƏLLƏR –** Gürcüstanın Bolnisi (Dəllər) və Dmanisi (Dağ Dəllər) rayonlarında qeydə alınmış bu etnotoponim də geniş areallara malikdir. Bolnisi rayonundakı Aran Dəllər kəndinin gürcülər tarixi adını dəyişib "Muşevani" qoyublar. Ağsu və Saatlı rayonlarında Dəlilər adlı kəndlər, Şəmkir rayonunda Dəlilər adlı şəhər tipli qəsəbə, Dəlilər Cəyir, Dəlilər Cırdaxan adlı kəndlər vardır.

VI-VII əsrlərdə Qərbi Türk Xaqanlığının yaranmasında böyük rol oynayan tele//teles tayfa adını özündə əks etdirən Dəllər etnoniminə Orxon-Yenisey abidələrində tolos şəklində rast gəlirik. Hal-hazırda Cəbrayıl rayonundakı dağlardan biri Tulusdağ və kəndlərdən biri Tulus adlanır. Altayda da bir tayfanın adı tolos adlanır. Hazırda qaraqalpaqların da tolos adlı bir tayfası var. 1590-cı ildə Osmanlı türkləri tərəfindən tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə Sisyan nahiyəsində bir kəndin Tulus

---

[12]Кузеев, Р.Г. Этнический состав, истории расселение и происхождение башкирского народа: / Диссертация … доктора филологических наук / – Уфа,1971. – с.53

[13]Материалы Всесоюзной переписи населения 1926 г. в Узбекской ССР. Вып. 1. Поселенные итоги // – Самарканд: Издательство ЦСУ УзССР, – 1927. –стр. 16, 31, 113

[14]Кузеев Р. Г. «Ономастика Поволжья». Материалы III конференции по ономастике Поволжья, – Уфа, – 1973. вып.3, – с. 18

[15]Ataniyazov, S.Türkmenistanın toponimik sözlüğü / S.Ataniyazov. – Aşqabad: Ilim, – 1970 . – s.13

[16]Çobanov, M. Çobanlı M. / Borçalı toponimləri / M.Çobanov, M.Çobanlı. – Bakı: Təhsil, – 2012. – 340 s. – s.86

adlandırıldığı qeyd edilir. Əlavə edək ki, Tatarıstanda tolos adlı tayfa indi də vardır. Qeyd edək ki, tele-teles-tulus "dəllər" leksik vahidinin qədim formasıdır. Hal-hazırda Qubadlı rayonundakı Həmzəli kəndi el arasında "*Dəlilər Həmzəlisi*" adlanır[17].

Bu tayfa xalqımızın etnoginezində yaxından iştirak etmişdir. Bunu həmin tayfa adı əsasında düzələn toponimik vahidlər və onların müxtəlif bölgələrdə yayılması da təsdiq edir. Belə ki, dəli etnonimi tele şəklində hunların bir tirəsinin adı kimi məlumdur. Tarixi mənbələrin verdiyi məlumata görə, telelər qədim zamanlarda Balxaş gölü ətrafında yaşamış və hun tayfa birləşmələrinə daxil olmuşdur. Tele tayfası VI əsrin ortalarında Dağıstana qədər uzanan Qərbi türk xalqlarının tərkibinə daxil olmuş və əsas etibarilə Xəzər dənizi sahilində məskən salmışlar. Mənbələrə əsasən söyləmək olar ki, eramızın VI-VII əsirlərində tele tayfası Azərbaycanda və onun hüdudlarında oturaq həyat keçirməyə başlamışlar.

Dilimizin sonrakı inkişaf prosesində "tele" sözü "dele" və ya "dəli" kimi formalaşmış və sonralar ona -lər şəkilçisi artırılmışdır. Deməli, dəli etnonimi "tele" sözü əsasında təşəkkül tapmışdır. Belə ki, "dəli" sözü əvvəllər dilimizdə həm tayfa adı, həm də "igid, cəngavər, qoçaq, cəsur, çılğın, qəhrəman, döyüşçü" mənalarında işlənmişdir. Ümumilikdə isə "dəli tayfası", "igid və cəngavər tayfa" məzmununu bildirir. Heç təsadüfi deyil ki, mədəniyyətimizin ensklopediyası hesab olunan "Kitabi-Dədə Qorqud" dastanlarında Dəli Domrul, Dəli Dondar, Dəli Qoçar, "Koroğlu" dastanında Dəli Koroğlu, Dəli Həsən, Koroğlunun dəliləri, "dəli nərə çəkmək" kimi antroponimik və leksik vahidlər formalaşmışdır. Bu da tele tayfasının döyüşən və cəngavər türk tayfası olduğuna dəlalət edir. Toponimlərin yaranması bu və ya digər ərazidə hər hansı bir qəbilə, tayfa və xalqın məskən salmasının tarixi ilə bağlıdır.

Göründüyü kimi, Dədə Qorqud dünyasının bütün regionlarında, o cümlədən Gürcüstanın Azərbaycan türkləri yaşayan bölgələrində dilimizin daxili imkanları (səs tərkibi, lüğət tərkibi, morfoloji və sintaktik qanunları) əsasında formalaşan yüzlərlə toponimlər və

---

[17]Azərbaycan toponimləri: Ensiklopedik lüğət / – Bakı: "Azərbaycan ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi, – 1999. – səh.192

hidronimlər vardır. Onların toplanması və tədqiqi xalqımızın, mədəniyyətimizin və dilimizin tarixi inkişaf yollarını işıqlandırmaq üçün böyük əhəmiyyət kəsb edir. Xalqımızın qədim zamanlardan yaşadığı bütün regionlarda, o cümlədən də Gürcüstanda, xüsusilə onun cənub-şərq rayonlarında, yəni qədim Borçalı mahalında ilkin orta əsrlərdən yayılmış zəngin və rəngarəng xüsusiyyətlərə malik olan türk (Azərbaycan) köklü toponimlərin toplanması və öyrənilməsi böyük elmi əhəmiyyətə malikdir.

Gürcüstanın milli-etnik tarixinə nəzər saldıqda görürük ki, türklər (azərbaycanlılar) lap qədim dövrlərdən, bizim eramızdan çox-çox əvvəllərdən bu regionun bir çox yerlərində yurd salmışlar. Tarixi qaynaqlarda paytaxt şəhəri olan Tiflisdə 730-cu ildə məscid tikilməsi və azərbaycanlılara məxsus ayrıca qəbirstanlığı olması barədə faktlar vardır.

Gürcüstan ərazisindəki etnotoponimlərin öyrənilməsində ulu mədəniyyət abidəmiz olan və VI-VII əsrlərin hadisələrini əks etdirən "Kitabi-Dədə Qorqud dastanı da əvəzedilməz mənbələrdən biridir. Əsərdə adı çəkilən etnotoponimlər (Kəpənəkçi, Qaçağan, Yavuqlu, İmir, Baydar, Sarvan, Tüllər, Ulaşlı, Bəytəkər, Azqanlı, Ərvənli, Dəllər və s.) Dədə Qorqud dünyası ilə yaxından səsləşir. XVI-XVIII əsrlərdə Osmanlı türkləri tərəfindən tərtib edilmiş "Tiflis əyalətinin müfəssəl dəftəri" adlı qaynaqda da Gürcüstan ərazisində etnotoponimlər haqqında zəngin məlumatlar vardır. 1728-ci ilə aid bu dəftərdə 500-ə qədər Gürcüstan ərazisindəki nahiyə, oymaq, məhəllə, arx, çay, qala və s. adları qeydə alınmışdır ki, bunların da demək olar ki, yarıdan çoxu etnonimik səciyyəlidir.

Gürcüstan ərazisindəki türk mənşəli toponimləri xüsusi olaraq araşdıran və tədqiq edən alimlər sırasında prof. M.Çobanov və Müşfiq Çobanlının "Borçalı toponimləri", İ.Kazımov "Axısqa türkləri: dil, tarix və folklor", Q.Məşədiyev "Zaqafqaziyanın Azərbaycan toponimləri", X.Əliyev "Gürcüstanın türk mənşəli toponimləri" əsərinin I fəsilinin birinci yarımbölməsini, Budaqov B.Ə., Qeybullayev Q.Ə., "Gürcüstanda türkmənşəli toponimlərin izahlı lüğəti", bölgənin qədim türk mənşəli toponimlərinə həsr etmişdir. V.İsrafilov uzun illər Gürcüstanın oronim və hidronimlərini toplamış, 2005-ci ildə "Azərbaycan oronim və hidronimlərinin

Gürcüstan arealı" adlı monoqrafiyasını çap etdirmişdir. Gürcüstan ərazisindəki türk mənşəli etnotoponimlər də xalqımızın minillik tarixindən xəbər verir.

Xalqın tarixini, dilini, qədim mədəniyyətini öyrənmək, onun yaşadığı ərazilərdə izlərini tədqiq etmək, aborigenliyini sübuta yetirmək üçün etnotoponimlər əvəzedilməz mənəvi cəhətlərdəndir. Hər hansı bir xalqın ana dilində yaranan, yaşayan xüsusi adlarının bir dildən digər dilə tərcümə edilməsi yolverilməzdir. Ola bilsin ki, qohum olmayan dillərdə hər hansı bir xüsusi adı transkripsiya etmək olar. Lakin *"yer adlarını dəyişdirmək sivilizasiyadan kənar iş olmaqla müəyyən xalqın, tayfanın izini itirmək məqsədinə xidmət edir"*[18].

Gürcüstanda türk mənşəli etnotoponimlərin dəyişdirilməsinə keçən əsrin 30-cu illərinin sonlarında başlanılmış, 90-cı illərdən sonra bu siyasət daha da sürətləndirilmişdir. Regionda etnonimlər əsasında formalaşmış etnooykonimlərin bəziləri məhv edilmiş, bəziləri rəsmi qərarlarla gürcüləşdirilmiş və ya Gürcü dilinə transkripsiya edilmişdir. Araşdırmalarımız göstərir ki, keçən əsrin 30-cu illərinin əvvəllərindən 90-cı illərinin əvvəllərinə kimi 60-a qədər yaşayış məntəqə adı dəyişdirilmişdir ki, bunun da 20-dən çoxu etnonimik səciyyəlidir.

Dissertasiyanın ikinci fəsli **"Gürcüstan ərazisindəki türkmənşəli etnotoponimlərin yaranma yollari"** və birinci yarımbölməsi **"Etnotoponimlərin quruluş xüsusiyyətləri"** adlanır. Bu bölmədə Gürcüstan ərazisindəki digər qrup coğrafi adlar kimi, etnotoponimlərdə dilin struktur qanunauyğunluqlarına tabe olaraq yarandığı, ümumtürk toponimlər sisteminə əsaslanaraq inkişaf edib formalaşması göstərilib.

Gürcüstan ərazisindəki türkmənşəli etnotoponimlər üzərində apardığımız təhlillərdən belə qənaətə gəlirik ki, ərazisinin etnotoponimləri (etnooykonimlər, etnooronimlər, etnohidronimlər) qrammatik baxımdan 3 yolla yaranır və onları strukturca 3 yerə (sadə, düzəltmə, mürəkkəb) bölmək olar.

---

[18]Təkləli, M. Qərbdən Şərqə ulu türk yurd adlarının dəyişdirilməsi tarixindən / M.Təkləli. – Bakı: Elm, – 1999. – s.5

Gürcüstan ərazisindəki etnotoponimlərinin yaranmasında linqvistik əsasları nəzərə alıb onları aşağıdakı kimi nəzərdən keçirməyi məqsədəmüvafiq hesab edirik: 1) Leksik-semantik yolla düzələn etnotoponimlər; 2) Morfoloji yolla düzələn etnotoponimlər; 3) Sintaktik yolla düzələn etnotoponimlər.

İkinci fəslin ikinci yarımbölməsi **"Leksik-semantik yolla düzələn etnotoponimlər"** adlanır. Regionda mövcud olan etnotoponimlərin əksəriyyəti qədim dövrlərə məxsus olduğundan həmin dövrlərin də leksik-semantik xüsusiyyətlərini özlərində yaşadır. Belə elmi təhlil və izahlarda bir qismi etnotoponimlərin öz ilkin formasını saxlaması, bir qisminin fonetik dəyişməyə məruz qalması, bəzi etnotoponimlərin müəyyən səbəblər ucbatından bir şəkildən başqa şəklə salınması, mənsub olduqları dialekt və şivə təsirlərinə məruz qalması, hansı dövrlərə aidliyi mütləq nəzərə alınır. Məsələn, *götürək Dmanisi rayonu ərazisində mövcud olan **Bəzəkli** etnooykonimini. Bəzəkli etnonimi kök+şəkilçi modeli əsasında formalaşmışdır. Bu yaşayış məntəqə adının əsasında dayanan "bəzək" sözü müasir dilimizdə "ziynət, gözəllik verən şey"*[19] anlamındadır. Bu söz qədim dövrlərdə "bozal" şəklində olmuş və tarixən tamamilə başqa məna daşımışdır. Bozal etnotoponimi yerli şivənin təsiri nəticəsində "bəzəkli" şəklinə düşmüşdür. Qədim dövrlərdə "bozallar" "üç oxlar" kimi də adlandırılmışdır. Ta qədimdən "bozal" tayfaları türk xalqlarının etnik tarixində mühüm rol oynamışlar. Azərbaycanlılar Qərbi Azərbaycandan (indiki Ermənistandan) deportasiya olunana qədər Üçkilsə rayonunda da Bəzəkli adlı yaşayış məntəqəsi olmuşdur. Belə qədim tarixə malik və müasir dilimiz üçün tanınmaz şəkilə düşmüş bəzi etnotoponimlərin ayrı-ayrılıqda leksik-semantik xüsusiyyətlərini burada verməyi məqsədəmüvafiq hesab edirik.

İkinci fəslin üçüncü yarımbölməsi "M**orfoloji yolla düzələn etnotoponimlər"** adlanır. Bu bölmədə Gürcüstan ərazisindəki müxtəlif linqvistik faktorları nəzərə alaraq etnotoponim yaradıçılığında mühüm rol oynayan topoformantları aşağıdakı kimi

[19]Altaylı, S. Azerbaycan türkçesi sözlüğü / S.Altaylı. – İstanbul: Milli Eğitim Bakanlığı Yayınları, – c. 1, – 1994. – s.

nəzərdən keçirmişik:

1. -lı, -li, -lu, -lü şəkilçisinin iştirakı ilə formalaşan etnotoponimlər.

a) Tayfa, qəbilə, nəsil, tirə adlarına -lı, -li, -lu, -lü şəkilçisinin əlavə olunması həmin ərazidə adı çəkilən nəslin, tayfanın, tirənin, qəbilənin bir hissəsinin yaşadığını bildirir. Bu qəbildən olanlara daha çox etnooykonimlər aiddir. Bunlara Ulaçlı, Şıxlı, Abdallı, Araplı, Arıxlı, Bəzəkli, Qırıxlı, Qoçulu, Muğanlı, Mığırlı, Saraclı, Təkəli və başqa etnooykonimləri misal göstərə bilərik.

b) Şəxs adlarına əlavə olunan -lı, -li, -lu, -lü şəkilçisi adı çəkilən törəmələrindən olanların, ya da həmin şəxsə mənsub olan əhalinin yaşadığı ərazini bildirir. Bunlara antropoetnotoponimlər aiddir: Ağaməmmədli, Qasımlı, Cəfərli, İlməzli, Yaqublu, Məmişli, Xocalı, Şahmarlı, Səfərli, Sarıməmmədli və s.

2. -lar, -lər şəkilçisi ilə yaranan etnotoponimlər.

-lar, lər şəkilçisi etnotoponimlərə qoşulduqda tayfa, nəsil, tirə daşıyıcılarının bir qrupunun həmin ərazidə yaşadığını göstərir: Qaracalar, Dəllər, Kosalar, Qullar, Dəmirçilər, Qarasavirlər, Qurdlar, Kürdlər, Şindilər etnooykonimlərində bunları aydın görmək olar.

3. -çı, -çi, -çu, -çü şəkilçisinin iştirakı ilə formalaşan etnotoponimlər.

Bu şəkilçi vasitəsilə isimlərdən peşə, sənət, məşğuliyyət, adət, xasiyyət, əqidə, meyil, təmayül, hal-vəziyyət, keyfiyyət və s. mənaları ifadə edən düzəltmə isimlər əmələ gəlir. Gürcüstan ərazisində bu şəkilçinin iştirakı ilə 2 etnooykonim (Quşçu, Kəpənəkçi) və 3 etnooronim (Dəmirçi təpəsi, 4Naxırçı kilsəsi, Çanaxçı təpəsi) qeydə alınmışdır.

4. -an, -ən şəkilçisinin iştirakı ilə formalaşan etnotoponimlər.

Etnotoponim yaradıcılığında ən məhsuldar morfoloji göstərici kimi iştirak edən bu şəkilçi ilə düzəlmiş yer-yurd adları Azərbaycan toponimiyasında xeyli saydadır və buraya ən qədim toponimlər aid edilir. Buna nümunə olaraq Muğan, Tuban, Abastuban, Qurutuban, Qaratuban, Zeduban və s. etnotoponimlərini göstərə bilərik.

İkinci fəslin dördüncü yarımbölməsi “**Sintaktik yolla düzələn etnotoponimlər**” adlanır. Gürcüstan ərazisində müşahidə olunan çoxlu sayda etnotoponimlər sintaktik üsulla yaranmışdır ki,

toponimiyada bu üsul çox məhsuldar bir üsul hesab edilir. Gürcüstanın türk mənşəli mürəkkəb quruluşlu etnotoponimlərini aşağıdakı kimi nəzərdən keçirə bilərik:

Birinci tərəfi antroponimlərlə ifadə olunan etnoantroponimlər: Mehdiağalar kəndi, Məhəmmədağalar, Həsənxocalı kəndi və s.

Birinci tərəfi dini sözlərlə ifadə olunan etnotoponimlər: Mollaoba, Hacıkənd, və s.

Birinci tərəfi rəng bildirən leksik vahidlərlə ifadə olunan etnotoponimlər: Ağ Təhlə, Qara Rəhlə, Ağməmmədli, Qızılhacılı, Sarıməmmədli və s.

Birinci tərəfi rütbə, titul bildirən sözlərlə ifadə olunan etnotoponimlər: Bayburt, Baydarlı, Bəytəkər və s.

Birinci tərəfi etnonimlə ifadə olunan etnotoponimlər: Qazankənd, Qazanqaya, İmirəhmədli və s.

Birinci tərəfi sənət və peşə bildirən sözlərlə ifadə olunan etnotoponimlər: Dərzioğlu kəndi, Dəmirçi-Həsənli kəndi və s.

Birinci tərəfi saylarla ifadə olunan etnotoponimlər: Yüzbaşılı kəndi, Birinci Kosalı, İkinci Kosalı və s.

Birinci tərəfi fərqləndirici əlamət bildirən sözlərlə (böyük, kiçik, balaca, orta, aşağı, yuxarı) ifadə olunan etnotoponimlər: Böyük Qaçağan, Orta Qaçağan, Aşağı Oruzman, Yuxarı Oruzman, Bala Muğanlı, Aşağı Saral, Yuxarı Saral və s.

Birinci tərəfi relyef bildirən sözlər əsasında formalaşan etnotoponimlər: Dağ Muğanlı, Dağ Arıxlı, Dağ Dəllər və s.

Dissertasiyanın üçüncü fəsli **“Gürcüstanin türk mənşəli etnotoponimlərinin leksik-semantik xüsusiyyətləri”nə** həsr edilmişdir. Leksik-semantik xüsusiyyətlər deyərkən həmin əlamətləri özündə cəmləşdirən həm leksik, həm də semantik cəhətlərə xas olan etnotoponimlər başa düşülür. Gürcüstanın etnotoponimlərinin formalaşmasındakı amilləri əsas götürüb onları aşağıdakı leksik-semantik qruplara bölmək olar:

etnooykonimlər;
etnooronimlər;
etnohidronimlər.

Bu fəslin birinci yarımbölməsində **“Etnooykonimlərin leksik-semantik təhlili”** verilir. Etnooykonimlər qəbilə, tayfa, nəsil və s.

əsasında yaranmış etnotoponimlərdir. Onlar yaşayış məntəqələrinin adlarından ibarətdir. Etnooykonimləri semantik baxımdan iki yerə ayırmaq daha düzgün olardı:

Antroponimik oykonimlər;

Etnonimik oykonimlər.

**Antroponimik oykonimlər**

Gürcüstan ərazisindəki etnotoponimlərin bir hissəsini antroponimlər əsasında əmələ gəlmiş coğrafi adlar təşkil edir ki, bunlar həm şəxs adlarından, həm də titul, ayama, ləqəb ilə şəxs adlarının birləşməsindən əmələ gəlmişdir.

**CƏFƏRLİ** – Gürcüstanın Bolnisi rayonundakı etnonimik antroponim əsasında formalaşan oykonimlərdən biridir. Araşdırmalarımız göstərir ki, Azərbaycanın Cəbrayıl (Cəfərabad kəndi), Şəki (Cəfərabad kəndi), Ağcabədi (Cəfərbəyli kəndi), Qəbələ (Cəfəryaylaq dağı), Ağsu (Cəfərli kəndi), Qazax (Cəfərli kəndi), İmişli (Cəfərli kəndi), Gədəbəy (Cəfərli kəndi), Cəlilabad (Cəfərli kəndi), Cəlilabad (Cəfərxanlı kəndi) rayonlarındakı bu toponimlərin hamısını “cəfərli” nəslinin və ya tirəsinin adı ilə bağlamaq düzgün olmazdı. Belə ki, Gürcüstanın Bolnisi və Azərbaycanın Qazax rayonlarındakı Cəfərli adlı yaşayış məntəqələri qazaxların qafarlı tayfasının bir qolu olmuş “cəfərli” elinin adı əsasında yaranmışdır. Lakin Cəbrayıl və Şəki rayonlarındakı Cəfərabad kəndlərinin adları Xoy hakimi Cəfərqulu xana məxsus ailələr saldığı üçün, Ağcabədi rayonundakı Cəfərbəyli kəndini kəbirli tayfasının eyniadlı tirəsinin vaxtilə məskunlaşmasına, Ağsu rayonundakı Cəfərli kəndini Muğanlı tayfasının cəfərli tirəsi saldığına, İmişli rayonundakı Cəfərli yaşayış məntəqəsini sarıxanlı tayfasının Cəfərli tirəsi məskunlaşdığına, Cəlilabad rayonundakı Cəfərli kəndini muğanlı tayfasının cəfərli tirəsi bina etdiyinə görə belə adlandırmışdır. Göründüyü kimi, müxtəlif ərazilərdə təkrarlanan bu etnotoponimlər adlandırma baxımından paralellik təşkil etsələr də, əksəriyyəti təsadüfi xarakter kəsb edir. Qeyd etməliyik ki, *XVIII əsrin əvvəllərində və XIX əsrin ortalarında indiki Ermənistanın Dərələyəz və Vedi nahiyələrində mövcud olan Cəfərli kəndlərinin əhalisi Qazax elinin Cəfərli tayfasına mənsub olmuş və onlar həmin dövrlərdə Gürcüstana köç*

*etmişlər*[20].

**FAXRALI** – Mürəkkəb quruluşa malik bu etnotoponim Gürcüstanın Bolnisi rayonunda qeydə alınmışdır. Faxralı etnotoponimi "fəxr" və "Əli//Alı" komponentlərindən ibarət olub, "fəxr edilən, öyünülən Əli//Alı" anlamındadır. Bu etnotoponimin birinci komponentində işlənən "fəxr" leksemi ləqəb bildirən sözdür. *Faxr//fəxr sözü bəzi dialektlərdə "bilikli, ağıllı, savadlı" (adam) mənasında da işlədilir. (Sabirabad rayonu)*[21]. "Fəxr edilən, öyünülən, örnək, nümunə göstərilən Alı" mənasındakı bu etnotoponimin izlərinə Azərbaycanda da rast gəlirik. "Goranboy rayonunda Gəncə-Qazax düzənliyində yerləşən Faxralı kəndinin əhalisi *XVIII əsrdə Gürcüstan ərazisində baş vermiş siyasi hadisələrlə əlaqədar olaraq bu bölgəyə köçmüşlər*"[22].

**Etnonimik oykonimlər**

Gürcüstan ərazisində türkmənşəli toponimlər kifayət qədərdir və onların böyük əksəriyyətini etnooykonimlər təşkil edir. Demək olar ki, Gürcüstanda elə bir bölgə yoxdur ki, orada türk tayfalarının adları əsasında formalaşmış oykonimlər olmasın.

Gürcüstanın Adıgün və Axalsix rayonları ərazilərində tub//tubo//tobel//tebel komponentli Toba, Qurutuban, Karatuban, Kortuban, Tobaxçi, Sarbastuban, Abastuban və s. kimi etnotoponimlər qeydə alınmışdır. Müxtəlif ədəbiyyatlarda və xəritələrdə ayrı-ayrı yazılışlarda rast gəlinən bu etnotoponimlərin hər birinin ayrı-ayrılıqda kökündə "tuba" etnonimi dayanır və bunların hər birində müxtəlif fonetik variantlar mövcud olsa da, müxtəlif apelyativlərləişlənsələr də, bunlar həm etnik varlıq, həm də leksik vahid kimi bir mənşədən törəmişlər. "*Azərbaycanda Tubikənd (İsmayıllı rayonu), Tuva dağı (Qobustan rayonu) etnooykoniminin kökündə də "tuba" tayfasının adını əks etdirən söz dayanır.*

[20]Budaqov, B. Q.Qeybullayev Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti / , Budaqov, B. Q.Qeybullayev – Bakı: Nafta Press, – 1998. – s.431

[21]Azərbaycan dilinin dialektoloji lüğəti / – Bakı: Azərb. SSR EA nəşriyyatı, – 1964. –s.402

[22]Azərbaycan toponimləri: Ensiklopedik lüğət / – Bakı: "Azərbaycan ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi, – 1999. – s. 485

*Toponimik mənbələrdə də təsdiq olunur ki, tuba komponenti erkən orta əsrlərdə Qərbi Türk xalqının tərkibində olmuş telelərintoba//tuba tayfasının adı ilə əlaqədardır. V əsrdə tele tayfa ittifaqına daxil olan tubalar çox güman ki, qıpçaqların tərkibində Azərbaycanda məskunlaşıblar"*[23]. Tubalıların Gürcüstan ərazisində məskunlaşmalarını da bu dövrə aid etmək olar. Deməli, Gürcüstan ərazisindəki Toba, Sxaltuba, Qurutuban, Qaratuban, Gortuban, Zeduban, Abastuban, Tobaxçi, Xeltubani etnonimlər coğrafi terminlər və müxtəlif morfoloji göstəricilərin iştirakı ilə tuba//tuba etnonimindən yaranmışdır. Tubalıların vaxtilə özlərinin müstəqil dili olmuşdur. Tuba//tuva sözünün lüğəti mənası "*insanlar*" (monqolca)[24] deməkdir. Beləliklə, bu etnotoponimlərin qısaca şəkildə leksik-semantik istiqamətdə təhlilini belə verə bilərik: Toba-Tov-tuba-tuva tayfasına məxsus ərazi, yer; Sxaltuba - "Sxal" sözü gürcücədir. Azərbaycan dilinə tərcüməsi "kənd, ərazi, məskən" deməkdir, yəni "tuba tayfasından olan insanların məskunlaşdıqları ərazi" anlamındadır; Qurutuban – "tuva tayfasının lantşaft baxımından quraqlıq ərazidə, susuz yerdə məskunlaşması" mənasındadır; Qaratuban – "Böyük tuva tayfasının saldığı kənd" anlamındadır. ("Qara" sözü burada həcm bildirir); Kortuban - əslində bu etnotoponim Qortuban şəklində olmalıdır. "Qor" sözünün qədim türk dillərindəki "güclü, qüvvətli" mənasını nəzərə alsaq, bu etnotoponim "güclü, qüvvətli tubalıların məskəni" anlamında izah edə bilərik; Abastuman – "Tuba tayfasından olan Abbasın saldığı yurd, "kənd" anlamındadır və s.

Tayfa adlarından törəmiş etnooykonimlərin leksik-semantik xüsusiyyətlərini öyrənilməsi, türk tayfalarının yayılma ərazilərinin dəqiqləşdirilməsi, onların etimoloji aspektdə tədqiqi Azərbaycan xalqının zəngin mədəniyyət və qədim etnik tarixinin bəzi qaranlıq qalmış problemlərinin həlli üçün olduqca vacibdir.

Üçüncü fəslin ikinci yarımbölməsində "**Etnooronimlərin leksik-semantik təhlili**"ndən bəhs edilir. Gürcüstan ərazisindəki

---

[23]Azərbaycan toponimləri: Ensiklopedik lüğət / – Bakı: "Azərbaycan ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi, – 1999. – s.471

[24]Budaqov, B. Türk uluslarının yer yaddaşı / B.Budaqov. – Bakı: Elm, – 1994. – s.139

etnotoponimlərin bir qrupu nəsil, tayfa, xalq, tirə adları ilə bağlı yaranmış oronimlər (oronim mənşəcə yunan sözü olub “”oros” (dağ), “onim” (ad) sözlərindən əmələ gəlmişdir) təşkil edir.

Oykonimlərdə olduğu kimi, Gürcüstanın oronimik landşaftında da etnonimlər müəyyən izlər qoymuşlar. Bu qrupdan olan xüsusi adları etnoorotoponimlər də adlandırmaq olar və digər yerlərdə olduğu kimi, Gürcüstan ərazisində də dağ, dərə, təpə, yal, aşırım, biçənək, qaya, gədik, eniş, yoxuş və s. coğrafi relyeflə bağlı yaranmış mikrotoponimlərdə dilimizin bir çox qatlarındakı leksik vahidlər, şivə xüsusiyyətləri, yerli coğrafi terminlər və müəyyən tarixi hadisələr öz ilkin formasını qoruyub saxlaya bilmişdr.

Gürcüstanın arealında Azərbaycan dilli (türk mənşəli) oronim və hidronimlərinleksik-semantik xüsusiyyətlərindən bəhs edən V.İsrafilov da doğru olaraq göstərir ki, *tədqiqata cəlb etdiyimiz ərazidəki Azərbaycandilli oronim və hidronimlərin öyrənilməsinin ilk növbədə ən böyük elmi əhəmiyyəti orada yaşayan azərbaycanlıların mənşəyinin öyrənilməsində, keçmiş mədəni irsimizin konkret nümunələrini üzə çıxarılmasında və xalqa çatdırılmasındadır*[25].

**SALARDAĞ** – Gürcüstanın Axalsıx rayonunda olan bu dağın adı Oğuz tayfalarının “salar” tayfasının adı ilə bağlı olaraq yaranmışdır. Gürcüstanda bir qədər gürcü dili təsirinə məruz qalmış Salietietnooykonimi də qeydə alınmışdır. Məlumdur ki, “Kitabi-Dədə Qorqud” dastanlarında Qazan xanın Salur tayfasından olması göstərilir. İlk orta əsrlərdə Azərbaycanda Salarilər adlı sülalə hökmranlıq etmişdir. Salar tayfa adı əsasında yaranmış yer-yurd adlarına “İrəvan əyalətinin icmal dəftəri”ndə (İrəvan əyalətinin Dərələyəz nahiyəsində Salçı kəndi), “Qafqazın beş verstinin xəritəsi”ndə (İrəvan quberniyasının Aleksandropol qəzasında Salut kəndi)[26], Dağıstanda  (Salian), Ermənistanda (2 Sallı kənd), Şimali Qafqazda (Sal çayı, Sal gölü), Krımda (Sala və kiçik Sala oronimləri) rast gəlinir. Böyük areallarda iz qoymuş bu etnosun mənşəyindən

[25]İsrafilov,V. Azərbaycan oronim və hidronimlərinin Gürcüstan arealı / V.İsrafilov. – Bakı: APİ, –  2005. –s.9

[26]Пагирев, Д.Д. Алфавитный указатель к 5-ти верстной карте Кавказского края / Д.Д.Пагирев. –  Тифлис:  – 1913. – с.216

bəhs edən Q.Qeybullayev qeyd edir ki, *sal tayfası hunlardandır*[27].

M. Seyidov V.V.Radlova əsaslanaraq yazır ki, *"Sal"ın "ocaq", "od yandırılan yer", "çılğın", "qızğın adam" anlamları vardır. Azərbaycan dilindəki "sal qaya" ifadəsindən görünür ki, "sal", "bütöv", "iri", "möhkəm" anlamında da işlənir. "Or"un isə digər anlamları ilə yanaşı, "möhkəmlənmə", "istehkam" anlamına da tuş oluruq. Salar, -yəni ucada (ola bilsin dağda) möhkəmlənmiş, istehkama çevrilmiş, ucada olan ocaq, od, od yandırılan yer, çılğın, qızğın adam deməkdir*[28]. Salar etnonimini Mahmud Kaşğari Salğur, Rəşidəddin Salur, Yazıçıoğlu Əli Salur, Əbülqazi xan Xilvəli Salar variantlarında yazıya almışlar. R.Eyvazova *Çində Qaraman və Akuanqəbilələrindən ibarət olan Salar tayfasının (40 mindən çox) yaşadığını bildirir*[29]. Bu araşdırmadan belə qənaətə gəlmək olar ki, "sal" sözünün mənası "möhkəm", "bütöv", "iri" deməkdir. Deməli, Gürcüstan ərazisindəki Salardağetnooroniminin mənası "möhkəm gücə malik salor tayfasının məskunlaşdığı dağ" anlamındadır.

Üçüncü fəslin üçüncü yarımbölməsində **"Etnohidronimlərin leksik-semantik təhlili"** verilir. Gürcüstan ərazisindəki etnohidronimlər də etnooykonimlər də etnooronim kimi müxtəlif və rəngarəngdir, onların leksik-semantik aspektdə öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Çünki etnohidronimlərdə də bir sıra tayfa, nəsil, qəbilə, xalq, millət adları yaşayır və dilimizin lüğət tərkibində mövcud olan bu söz qatları da tarixən müxtəlif dövrlərdən hərtərəfli şəkildə xəbər vermək gücünə malikdirlər.

Gürcüstan ərazisindəki etnonimlər əsasında formalaşmış hidronimləri leksik-semantik xüsusiyyətlərinə görə aşağıdakı kimi qruplaşdıra bilərik:

Etnonimlərin göl adlarında əksi;
Etnonimlərin çay adlarında əksi;
Etnonimlərin bulaq adlarında əksi.

---

[27]Гейбуллаев, Г. К этногенезу азербайджанцев / Г.Гейбуллаев. – Баку: Элм, – 1991. – с.56 )

[28]Seyidov, M. Azərbaycan xalqının soykökünü düşünərkən / M.Seyidov. – Bakı: Yazıçı, – 1989. – s.111

[29]Eyvazova, R. Əfqanıstanda türk mənşəli toponimlər / R. Eyvazova. – Bakı: Elm, – 1995. – s.96

**Etnonimlərin göl adlarında əksi**

Gürcüstan ərazisindəki göl adlarının bir qismində qədim dövrlərdən bu bölgədə yaşamış qəbilə və tayfa adları əks olunmuşdur. "*Həmin qəbilə və tayfaların xeyli hissəsi türk etnosu olub, bu və ya digər ictimai-siyasi hadisələrlə əlaqədar olaraq, tarixin müəyyən pillələrində coğrafi ərazi baxımından başqa-başqa tayfalarla qaynayıb-qarışsa da, öz "imzalarını" yaşadıqları ərazinin müəyyən"...*[30] su obyektlərinə də vermişlər. Bu baxımdan göl adlarında əks olunan etnonimlərin linqvistik baxımdan araşdırılması xalqımızın tarixi inkişafı haqqında maraqlı faktlar əldə etməyə böyük köməklik göstərir.

**BOZALET GÖLÜ** – Qədim "bozal/bazal" adlanan tayfanın adı Gürcüstanın Duşet rayonu ərazisindəki Bozalet gölü hidronimində qalmışdır. Həmin rayonda Bazalet və Bazaliane oykonimlər də qeydə alınmışdır. Qeyd edək ki, xəzər tayfa birləşməsinə daxil olan bozal/bizal tayfa adı Azərbaycanın Tovuz rayonundakı Bozalqanlı etnooykoniminin birinci komponentində mühafizə olunmaqdadır. XVIII əsrdə qızılbaş tayfa birləşməsinə daxil olan bozal/bizal tayfa adının Azərbaycan etnonimiyasında semantik təhlilinə cəhd edilməmişdir. Fikrimizcə, bu tayfa adı qədim türk dillərindəki "baz/boz" sözləri ilə səsləşir və mənası "sıldırım dağ" deməkdir. Bozalet gölü adlı hidronimə "al" və "et" komponentləri sonralardan əlavə edilmişdir. Etnohidronim "bozal/bizal" tayfalarının gölü" anlamındadır.

**Etnonimlərin çay adlarında əksi**

Gürcüstan ərazisində axan çayların bəziləri etnonimlərlə adlandırılmış və onların da leksik-semantik baxımından və eyni zamanda etnogenetikaraşdırmalatrın aparılmasında, müəyyən tarixi faktların əldə edilməsindən olduqca mühüm rol oynayır.

QANNIÇAY – Gürcüstanın Dmanisi rayonunda mövcud olan bu etnohidronim "qan" sözü və sözdüzəldici şəkilçi hesab olunan -lı, -nı (irəli assimilyasiya nəticəsində "l" səsi "n" səsi ilə əvəzlənmişdir) , ikinci komponent isə hidronimik termin hesab

[30]Əsgərov, N. Azərbaycan hidronimləri / N.Əsgərov. – Bakı: ADPU, 2002. –s.97

olunan "çay" sözündən ibarətdir. Komponentdə "qanlı" sözü iştirak edən yer-yurd adlarını bəzi toponimlər etnonim səciyyəli coğrafi adlar hesab edirlər. A.Qurbanov "qanlı" sözü ilə formalaşmış hidronimləri leksik-semantik cəhətdən təhlil edərək onların bir qismini "müəyyən bədbəxt hadisələrlə əlaqədar olaraq ad almış su obyektləri adı ilə (*Qannıçay, Qannıgöl və* s.)[31], bir qismi isə *"kanqlı/qanqlı"* (*Qanlıkənd, Qanlı tala, Qanlı qaya* və s.) [32] ( tayfası-etnonimi ilə bağlı olaraq izah etmişdir.

Əlbəttə, Dmanisi rayonu ərazisində Qannıçay hidronimini leksik-semantik "kanlı/qanlı" tayfa adı ilə bağlı olaraq izah etmək daha düzgündür. Hidronimin kökündə duran qannı/qanlı sözləri eradan əvvəl III əsrdən məlum olan kanqar/kəngər/kank/kəng etnoniminin müxtəlif dil və dialekt paralelləridir. Mənbələrdə də qeyd edildiyi kimi,*"kanqlılar VIII əsrin ortalarında Sırdəryanın orta axarının hövzəsində yaşamış, oğuz və karlukların basqınından sonra iki hissəyə parçalanmışlar. Onların bir hissəsi Aral dənizinin şimal-qərb çöllərinə doğru hərəkət edərək peçeneq və xəzərlərlə qarışmış, digər hissəsi isə şimal-şərq tərəfə sıxışdırılaraq Balxaş gölü və Xərəzi zonasına köçərilik etmiş, 1218-ci ildə monqolların tərkibinə daxil olaraq, onlarla birlikdə bu əraziyə (Azərbaycana) gəlmiş ən qədim türk tayfalarındandır"*[33]. K.Ş.Şaniyazovun fikrincə, kanqlı tayfasının qıpçaq, karluq, cigil və başqa tayfalarla bərabər, Orta Asiyadan Qərbə axını daha əvvəllər başlamışdır. V əsr erməni və gürcü müəllifləri Qafqazda bu tayfanın (kəngər) olması haqqında məlumat verirlər. Görünür Kəngər tayfasının Qafqazda axını hələ I-VI əsrlərdə baş vermişdir. (yenə orada, s.9) Deməli müasir dilimizdə qannı/qanlı şəklində işlənən bu tayfa adı tarixin müxtəlif dövrlərində qanq/kanq/kəng/qan/xen/kın/kan/kən formalarında olmuş, sözün sonundakə "q/k" hissəciyi "ık/ok/uk" (yəni ox/oq etnoformant) etnoformantını əvəz etmişdir.

---

[31]Qurbanov, A. Azərbaycan dilinin onomalogiyası / A.Qurbanov. – Bakı: Maarif, – 1988. – s.383

[32]Qurbanov, A. Azərbaycan dilinin onomalogiyası / A.Qurbanov. – Bakı: Maarif, – 1988. – s.398

[33]Шаниязов, К.Ш. К вопросы расселения и родовых делений канглы // Этнографическое изучение быта и культуры узбеков, – Ташкент:– 1972. – с.4-12

**Etnonimlərdən törəmiş bulaq adları** Gürcüstan ərazisində azlıq təşkil edir və bunlar aşağıdakılardır: Asqara bulağı, Qazaxlının bulağı, Dəllər bulağı, Kosalar bulağı, Lahıc bulağı, Şindi bulağı, Qırx bulaq, Şıxlının bulağı və s.

Dissertasiya işinin "**Nəticə**" bölümündə əldə olunan elmi qənaətlər aşağıdakı kimi ümumiləşdirilmişdir:

1.Gürcüstan ərazisindəki türk mənşəli etnotoponimlərin sayca və areal baxımından coxluğu bu regiondakı etnotoponimlər üzərində araşdırma aparmağa böyük imkanlar yaradır. Ərazinin etnotoponimləri aydın şəkildə göstərir ki, Azərbaycan türkləri eramızdan çox-çox əvvəllər bu bölgədə məskunlaşmış və öz dillərinə uyğunlaşdırılmış formada yer-yurd adları yaratmışlar.

Uzun tarixi inkişaf prosesi keçmiş Gürcüstan bölgəsindəki etnotoponimlərin, demək olar ki, əksəriyyəti qədim türk tayfalarının adlarını özlərində əbədiləşdirmişdir. Etnosların yer adlarının yaranma və eyni zamanda onların formalaşmasında ekstralinqvistik faktorların rolunu hərtərəfli şəkildə müəyyənləşdirməklə dilimizin, tariximizin, maddi və mənəvi irsimizin qaranlıq məsələlərinə aydınlıq gətirmiş oluruq. Gürcüstan ərazisində xalqımızın və onun dilinin formalaşmasında iştirak etmiş türkdilli etnik qrupların və tayfaların hansılarının daha çox rol oynadıqlarını dildənkənar faktorlar nəzərə alınmaqla da meydana çıxarmaq mümkün olur.

2. Areal xüsusiyyətlər onu sübut edir ki, minilliklər boyu nəinki türk xalqları yaşayan ərazilərdə, həmçinin dünyanın əksər yerlərində Gürcüstan ərazisində tarixən bina tutan və əsl sahibləri türk tayfaları olan və bu tayfaların adı ilə bağlı çoxlu sayda etnotoponimlərin paralelləri mövcuddur. Bu da onların qədim və ilkin areallarının, etnik tərkibinin müəyyənləşdirilməsi üçün xeyli etnonimik materiallar verir.

3. Gürcüstan ərazisindəki etnotoponimlər tarixin müxtəlif dövrlərində meydana gəldiyindən, uzun bir inkişaf və təkamül yolu keçdiyindən mövcud olduğu makro və mikro ərazilərin ekstralinqvistik mənzərəsini çox dolğun şəkildə özündə əks etdirə bilir, etnotoponimləri leksik-semantik istiqamətdə araşdırmaq üçün dəyərli mənbəyə çevrilir.

4. Tədqiqatda xüsusi olaraq vurğulanır ki, Gürcüstan

ərazisindəki etnotoponimlərin dəyişdirilməsi, gürcü dilinə tərcümə edilməsi (xüsusi adların tərcümə edilməsi inkişaf etmiş bütün dünya dillərində yasaq edilmişdir - H.Çobanova) və ya gürcü dilindəki apelyativlərlə Azərbaycan dilindəki coğrafi terminlərinəvəz edilməsi yolverilməzdir. Araşdırma onu da göstərir ki, türk mənşəli etnotoponimləri tarixi-linqivistik aspektdə tədqiq etməklə əsl həqiqətləri üzə çıxarmaq, bəzi üzdəniraq gürcü şovinistlərinin məkrli siyasətini, saxtakarlığını aşkar etmək mümkün olur.

5. Gürcüstan ərazisindəki etnotoponimlərin tarixi və müasir mənbələrdəki əksi onu göstərir ki, xüsusi adlar müfəssəl bir şəkildə araşdırma obyektinə çevrilmişdir. Aparılan tədqiqatda regionun etnooykonimləri, etnooronimləri, etnohidronimləri əhatəli bir şəkildə dilçilik, tarixi-linqvistik istiqamətlərdə tədqiq edilib və ilk dəfə olaraq bölgənin etnotoponimlərinə bu istiqamətdə münasibət bildirilib.

6. Tədqiqatda Gürcüstandakı şəxs adları əsasında formalaşmış antropoetnotoponimlərin semantik xüsusiyyətləri izlənilir, onların komponentlərinin hansı leksik vahidlərlə və coğrafi terminlərlə ifadə edilməsi dəqiqləşdirilir. Tarixi proses nəticəsində uğradıqları forma-semantik dəyişmələr müəyyənləşdirilir.

7. Araşdırma göstərir ki, Gürcüstan ərazisində tayfa adlarından törəmiş etnooykonimlərin leksik-semantik, morfoloji, sintaktik xüsusiyyətlərini öyrənməklə, onları bu aspektdə tədqiq etməklə xalqımızın zəngin mədəniyyət və qədim etnik tarixinin bəzi qaranlıq qalmış problemlərinə aydınlıq gətirmiş oluruq.

8. Tədqiqatda etnooronimlərin də araşdırılması zəruri hesab edilmiş, regionda mövcud olan etnooronimlərin tarixi köklərinin çox-çox qədim dövrlərə gedib çıxdığı və Azərbaycan xalqının etnogenez məsələlərinin öyrənilməsində çox mühüm əhəmiyyət kəsb etdiyi göstərilir, ərazidəki bəzi oronimlərinetnooykonimlərlə, bəzi oykonimlərin isə etnooronimlərlə transferi nəzərdən keçirilir.

9. Mövcud ərazidəki etnohidronimlərin də leksik-semantik istiqamətdə təhlili böyük elmi və prinsipial əhəmiyyət kəsb edir. Insanların yaşaması üçün su əsas şərt olduğu üçün onunla bağlı olan xüsusi adların əmələ gəlmə tarixi də çox qədim dövrlərə gedib çıxır və bu qədim izlər etnohidronimlərdə daha çox mühafizə edilir,

araşdırma tipində müstəsna rol oynayır. Məhz buna görə də araşdırmada Gürcüstan ərazisində qeydə alınmış çay, göl, bulaq adları əsasında formalaşmış etnohidronimlərin leksik-semantik xüsusiyyətlərilə bir qədər əhatəli prizmadan yanaşılmışdır.

**Tədqiqatın əsas məzmunu çap olunmuş aşağıdakı tezis və məqalələrdə əksini tapmışdır:**

1. Gürcüstanda türkköklü etnooykonimlər // – Bakı: Filologiya məsələləri, – 2014. № 9, – s. 35-41.
2. Gürcüstan ərazisində "Dədə Qorqud" dastanı ilə bağlı bəzi qədim toponimlər // – Bakı: Sivilizasiya, – 2015. № 8, – s. 82-87 .
3. Gürcüstan ərazisində sözdüzəldici şəkilçilərin birləşməsi nəticəsində yaranan türkköklü etnotoponimlər // "Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar". Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş Beynəlxalq konfrans, – Bakı: – 14-15 noyabr, – 2016, – s. 224-229 .
4. -lar, -lər şəkilçilərinin köməyi ilə düzələn türkmənşəli etnotoponimlər // – Bakı: Filologiya məsələləri, – 2017. № 19, – s. 80-86
5. Gürcüstan ərazisində sintaktik üsulla düzələn türkmənşəli etnotoponimlər (etnooykonimlər) // – Bakı: Axtarışlar, – 2017. Cild 7, № 2, – s.121-125
6. Роль экстралингвистических факторов в формировании этнотопонимов // – Киев: Язык и культура, – 2018. Выпуск 21. Том I (190), – с. 43-49 .
7. Gürcüstan ərazisində türkmənşəli etnotoponimlərin arealları // – Bakı: Heydər Əliyev adına AAHM, "Elmi əsərlər məcmuəsi", – 2018. №1 (15), – s. 80-86 .
8. Role of etnonyms in the creation of toponym // – Одеса: Науковий вісник міжднародного гуманітарного університету. Серія: Філологія, – 2018. Випуск 33, том 1, – с.121-123
9. Etnonimik oykonimlər. Qərbi Kaspi Universiteti. // Respublika Elmi konfransı, "Xalqın keçmiş tarixi, Etnogenezi, sosial əlaqələrinin öyrənilməsində onomastik vahidlər mövzusunda Respublika Elmi Konfransı, Elmi Xəbərlər, Humanitar elmlər seriyası №2, İssn 227-5118, –Bakı: –2019, –s. 189-193.

10.”Nəsimi şeirlərində etnos adlarının işlənmə tezliyi”, Sivas Cumhuriyet Universitesi, Nesimi kitabı, – Sivas: –2019, –s.229-239.

11. “Этнотопонимы – источник национальной принадлежности”, Научно-издательский центр «Актуальност.РФ» EURASIASIENCE XVIII Международная научно-практическая конференция 31 марта 2020, Сборник статей, – Москва: –2020, –стр.214-217.

12. “Gürcüstan ərazisində türk mənşəli etnotoponimlərin gürcüləşdirilməsi”, // Elmi iş, Beynəlxalq elmi jurnal, // “Humanitar və İctimai Elmlərin Əsasları” mövzusunda I Respublika Elmi Konfransının Materialları, İSSN 2663-4619 –Bakı: – 2020, –səh.47-50



Dissertasiyanın müdafiəsi 1 iyun 2021-ci il tarixində saat $11^{00}$-da Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.06 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı, AZ 1143, H.Cavid prospekti 115, V mərtəbə, AMEA Nəsimi adına Dilçilik İnstitutu.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 29 aprel 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 29.04.2021
Kağız formatı: 60x84.16\1
Həcm: 42 086
Tiraj:100